# Ailədə Gender **Bərabərliyi**



www.scfwca.gov.az

Buklet Almaniya Beynəlxalq Əməkdaşlıq
Təşkilatı tərəfindən maliyyələşdirilib.

AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

# **Ailədə gender bərabərliyini** necə təmin edək?



**Ədalət** -"Ədl" sözündən olub, ərəb dilində bərabərlik və insaflı mənalarını daşıyır. İnsanlar arasında mübahisəli məsələlərdə düzgün, qərəzsiz qərar verənlər ədalətli adlanırlar.

**Hüquq bərabərliyi** - Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinə görə kişi ilə qadının eyni hüquqları və azadlıqları var.

**Gender** - cəmiyyətdə kişi və qadınlar arasında hüquqların bərabər təminatı deməkdir.

**Gender bərabərliyi** - iqtisadi, siyasi, əxlaq ailə-məişət, təhsil, şəxsi sərbəstlik və s. sahələrdə hər iki cinsin real hüquq və imkan bərabərliyinə nail olmaqdır. Bərabərlik prinsipi isə qadın və kişi münasibətlərinin ədalətlə bərqarar olmasını və məsuliyyətin bölüşdürülməsini tələb edir.

# Ailədə gender bərabərliyinin təmin olunmasının əsasları

- Ər-arvad ailədə öz münasibətlərini qarşılıqlı yardım və hörmət hissi əsasında qurmalıdırlar;
- Ailənin möhkəmləndirilməsi və rifahı üçün birgə fəaliyyət göstərməlidirlər;
- Ər və arvad ailə münasibətlərində bərabər şəxsi və əmlak hüquqlarına malikdirlər.
- Ailənin bir üzvü öz hüquqlarını həyata keçirərkən və vəzifələrini yerinə yetirərkən ailənin başqa üzvlərinin hüquqlarını, azadlıqlarını və qanuni mənafelərini pozmamalıdır.
- Ər və arvad özünə məşğuliyyət, sənət və yaşayış yeri seçməkdə sərbəstdilər.
- Ər və arvad ailə büdcəsinin idarə olunmasını birgə həyata keçirməlidirlər;
- Ailə planlaşdırılmasında (nə vaxt və neçə uşağın olması üçün münasib vaxt) ər və arvadın birgə razılığı olmalıdır;
- Ailədə qız və oğlan övladları arasında cinsə görə ayrıseçkiliyə yol verilməməli;
- Övladlarının (qız və oğlana fərq qoymadan) inkişafı üçün əlverişli şərait yaratmalı və onların sağlamlığının qayğısına qalmalı;
- Nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır.
- Nikah dövründə ev təsərrüfatı ilə, uşaqlara qulluq etməklə məşğul olduğundan və ya digər üzürlü səbəblərə görə müstəqil qazancı olmayan ər (arvad) də ümumi əmlak üzərində hüquqa malikdir.
- Analıq, atalıq uşaqların tərbiyəsi və təhsili eləcədə ailənin digər məsələləri ər-arvadın hüquq bərabərliyi prinsiplərinə uyğun olaraq birgə həll edilir.



# Gender stereotipləri

**Gender stereotipləri – qadın və kişilərin həyatda özlərini necə aparmalı olduqlarına dair cəmiyyətdə tərtib edilmiş, ümumiləşmiş təsəvvürlər gender stereotipləri adlanır.**

Mənfi gender stereotipləri düşüncələrdə dərin iz salmış yalnış fikirlərdir.

Misal olaraq, el arasında kişi ağlamaz, qız yükü duz yüküdür, qadının yeri mətbəxdir, kişilər texniki sahədə daha ağıllı və bacarıqlıdır, qadın zərif məxluqdur, qadın tabe olar, kişi ailə başçısıdır, qadının əsas rolu ailə qurmaq və uşaq dünyaya gətirməkdir kimi təsəvvürlər (stereotiplər) formalaşmışdır.

## Hamiləlik zamanı cinsə (qız və ya oğlan) görə seçim etmə!



Bəzi ailələrdə uşaq doğularkən qız övladlarından çox oğlan övladlarına üstünlük verilir. Bəzən dölün cinsiyyətini öyrəndikdə, qız uşaqlarını abort edir, oğlan olarsa hamiləliyi davam etdirirlər. Oğlanı nəslin davamçısı hesab edir, "qız özü sərbəst ayaqda dura bilmir, qız ailə üçün ağır yük ola bilər" kimi stereotiplər mövcuddur. Cinsə görə seçim (selektiv abortlar) bir sıra problemlər yaradır:

**Nəticə**

- ölkə əhalisinin sayı azalır;
- evlənmək üçün qız çatışmazlığı yaranır;
- kişilər əcnəbi qadınlarla evlənir;
- miqrasiya problemləri artır və s.

# Qız övladlarını təhsildən uzaqlaşdırma!

"Bir oğlana təhsil verməklə təhsilli bir insan, bir qıza təhsil verməklə təhsilli bir ailə qazanırsınız"

Hacı Zeynalabdin Tağıyev

Bəzən ailələrdə valideyinlər  övladlarına təhsil verərkən əsasən oğlan uşaqlarına üstünlük verirlər. Onlar qızların təhsil almasını əhəmiyyətli hesab etmirlər.  Təhsilli, inkişaf etmiş qadınlar daha savadlı, dünyagörüşlü və sağlam ruhlu övlad yetişdirir. Qızları təhsildən yayındırmaq cəmiyyət üçün çox böyük fəsadlar yaradır.



## Nəticə

- Savadsızlıq artır;
- Savadsız qadın öz hüquqlarını müdafiə etməyi bacarmır;
- Gələcəkdə məşğulluq problemi yaranır;



# Qadınların əmək fəaliyyətinə mane olma!

Bəzi ailələrdə kişilər qadınların işləməyinə razı olmur. Qadının təhsil almasına baxmayaraq, o evdar qadına çevrilir. Bu həm qadının inkişafına, həm də ailənin maddi vəziyyətinə təsir edir. Çünki əgər kişi ilə bərabər qadın da çalışıb evinə gəlir gətirərsə, bu ailənin maddi vəziyyətinin yaxşılaşmasına gətirib çıxarar.

## Nəticə

- Qadınlar psixoloji və iqtisadi zorakılığın qurbanı olur;
- Qadınlar ər və valideyindən iqtisadi (maddi) cəhətdən asılı olur;
- Ailənin maddi təminatını kişi həll etdiyindən, qadının söz hüququ olmur;
- Ailənin maddi vəziyyəti aşağı olur;
- Evə gəlir gətirməyən qadın ailə büdcəsinin səmərli idarə olunmasında iştirak edə bilmir;

# Peşə seçiminə mane olma!

Valideyinlər "kişi işi", "qadın işi" stereotipləri altında övladlarının peşə seçiminə mane olurlar. Bu da gələcəkdə yeniyetmənin sevmədiyi peşəyə yiyələnməyinə səbəb olur. Valideyinlər qızlarını ənənəvi peşələrə, əsasən də müəllim və ya həkim ixtisasını seçməyə məcbur edir. Bu da qızların peşə seçimində hüquqlarının pozulmasına gətirib çıxarır.

## Nəticə

- Qadınlar ancaq ənənəvi sahələrdə təmsil olunur;
- Qeyri ənənəvi sahələrdə çalışan qadınların sayı az olur;
- Qadınlar az gəlirli işlərdə çalışırlar;
- Qadınlar istədikləri peşələrə yiyələnə bilmədikləri üçün karyera uğuru əldə edə bilmirlər.



**Ailədə gender bərabərliyi prinsiplərinə əməl olunarsa,** cəmiyyət hərtərəfli inkişaf edər. Zorakılıq olmaz!

**Buklet Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı tərəfindən maliyyələşdirilib.**